# MEYAR ƏDƏBİ VƏ MİLLİ DƏYƏRLƏRDİR

(əvvəli ötən sayımızda)

Romantik lirikanın tədqiqindən realist ədəbiyyatın öyrənilməsinə keçidin əsasında zəngin ədəbiyyatşünaslıq təcrübəsi, ədəbi dəyərlərə məhəbbət və vurğunluq hissləri dayanır. Tamamilə fərqli estetik sistemləri olan bu iki yaradıcılıq üsulunun spesifik cəhətlərini, tipoloji qanunauyğunluğunu müəyyənləşdirmək, hər ikisinin ədəbiyyat tariximizdəki yerini və mövqeyini göstərmək ciddi elmi hazırlıq tələb edir.

İstər romantik lirikanın, istərsə də realist ədəbiyyatın ancaq bir sənətkarının həyat və yaradı-cılığını öyrənmək, tədqiq etməklə kifayətlənməyən İsa Həbibbəyli romantik lirikanın Ə.Hüseynzadə, A.Səhhət, M.Hadi, A.Şaiq, M.Müşfiq, realist ədəbiyyatın C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Möcüz, Ə.Qəmküsar, M.Şaxtaxlı, M.Sidqi, Ö.F.Nemanzadə və onlarca romantik və realist sənətkarın yaradıcılığındakı fərdi və ümumi cəhətləri, XX əsr Azərbaycan ədəbiyyatının iki qanadını - realist və romantik yaradıcılıq üsullarının ictimai-məfkurəvi istiqamətini düzgün müəyyənləşdirib. Tədqiqatçının "Romantik lirikanın imkanları" (1984) əsərini yüksək qiymətləndirən və bu əsərin romantik lirikamızın öyrənilməsindəki əhəmiyyətini qeyd edən Teymur Kərimli yazir ki, "XX əsrin ilk onilliklərində yaranmış romantik lirikanın əksər örnəkləri indiki nəsillər tərəfindən çətin anlaşılan ərəb-fars tərkibləri, klassik ədəbiyyatda işlənən müxtəlif fəlsəfi və başqa elm sahələrinə aid terminlərlə, dini-mifik, dini-realist obrazlarla zəngindir. Xüsusən görkəmli romantik sənətkarımız Məhəmməd Hadi bu sahədə özünəməxsus "yədi-beyza" göstərməsi ilə fərqlənir. Bütün bu qəliz dilli, bol terminli mətnlər arasında peşəkar səviyyədə baş cıxarmaq üćün, təbii ki, təkcə o dövrdə poeziyzda işlənən ərəb-fars sözlərini, tərkib və izafətləri deyil, ümumiyyətlə klassik ədəbiyyatı, Şərq və Qərb fəlsəfi fikrinin aparıcı əsərlərini dərindən bilmək tələb olunur ki, "Romantik lirikanın imkanları" müəllifi öz əsərləri ilə bu tələblərə yüksək səviyyədə cavab verdiyini sübuta yetirmişdir.

"Cəlil Məmmədquluzadə; Ədəbi mühiti və müasirləri" (1997) monoqrafiası ədə-biyyatşünaslığımızda bu mövzuda yazılan ilk əsərdir. Bunu da qeyd edək ki, İsa Həbibbəyli müraciət etdiyi mövzulara növbəti ədəbi mərhələlərdə yenidən qayıtmağa ehtiyac hiss edir, mövzunu qatı acılmayan ədəbiyyat tarixi faktları ilə zənginləşdirir. Bütün bunlarla birlikdə əvvəlki illərdə yazdıqlarına yeni, daha müasir meyarlarla yanaşır. Cəlil Məmmədquluzadə yaradıcılığı ilə bağlı tədqiqatlarında da bu həqiqət aydın görünür. "Cəlil Məmmədquluzadə: Ədəbi mühiti və müasirləri" (1997) əsərindən sonra bu mövzuya dəfələrlə yenidən qayıdıb, nəhayət, bu monoqrafiya əsasında daha da təkmilləşdirilən, xeyli sayda ədəbi-tarixi fakt və arxiv materialları ilə yeniləşən "Cəlil Məmmədquluzadə mühiti və müasirləri" ( 2009) əsərini tamamlayıb. "C.Məmmədquluzadə mühiti və müasirləri" (2009) monoqrafiyasında ədibin 105 müasirinin yeni əsərlərini üzə çıxarıb, onların həyat və yaradıcılığı, tərcümeyi-halı haqqında maraqlı, orijinal fikirlər səsləndirib.

İsa Həbibbəylinin monoqrafiyasında Cəlil Məmmədqulzadə və onun müasirlərinin ədəbi-ictimai fəaliyyəti ayri-ayrılıqda tədqiqata cəlb edilmir. Böyük və zəngin bir ədəbi mühit bütöv ədəbi-tarixi mərhələ kimi ədəbiyyatşünaslığa gətirilir. C. Məmmədquluzadənin də, M.Ə.Sabirin də M.Şahtağlının da, Ə. Hüseynzadənin də yaradıcılığı ictimai mühitin, ədəbi-tarixi şəraitin fonunda öyrənilir. Bu cür mükəmməl tədqiqat konsepsiyasından istifadə edəndə tədqiqatçı ədəbi-tarixi fakt və dərin ədəbi-nəzəri ümumiləşdirmələrdən eyni dərəcədə faydalanır. Məsələn, Qori Müəllimlər Seminariyasındakı pedaqoji şəraitdən bəhs edəndə o, ictimai- ideoloji mühit amilindən çıxış edir, bu barədə ətraflı məlumat verir və ciddi elmi hazırlıqdan sonra C. Məmmədquluzadənin seminariyadakı fəaliyyətinə keçir. Beləklə, ədibin ictimai məfkurəsinin formalaşmasında mühüm rol oynayan amillər haqqında kifayət qədər informasiya, ədəbi fakt verilir, zəngin təəsürat yaranır.

Monoqrafiyadan öyrənirik ki, Qori Müəllimlər Seminariyasında ictimai-sosial fəallığı ilə seçilən təkcə C.Məmmədquluzadə deyildi, onlarca ceminariya tələbəsi ictimai və milli məfkurə uğrunda mübarizəyə buradan başlayıb. Tədqiqatçı C.Məmmədquluzadəni yetişdirən mühit və onun Naxcıvandakı fəaliyyəti haqqında yazanda da eyni tədqiqat ideyasından istifadə edir. Naxcıvandakı maarifcilik hərəkatı, yazıcının maarifci müasirləri, şəhərin mədəni mühiti və mətbuatı ilə bağlı dəqiq, konkret elmi faktlara söykənir. Tədqiqatçını, oxucunu Naxcıvan ədəbi mühitindəki realliqlarla tanış edəndən sonra bu yurdun layiqli övladları olan Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Hacıağa Fəgir Ordubadi, Mirzə Cəlil Sürbi (Mirzəyev), Məhəmmədağa Şahtağlı yaradıcılığına ictimai və milli məfkurə nöqteyi-nəzərindən hərtərəfli diqqət yetirir.

Müstəqillik dövrünə qədər yazılan bəzi tədqiqat əsərlərində "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri bir-birinə zidd məfkurə kimi təqdim olunurdu. İsa Həbibbəylinin yeni tədqiqat əsəri bu cəhətdən də mükəmməl təsir bağışlayır. Bu mənada ki, monqrafiyada XX əsrin əvvəllərində ictimai fikri istiqamətləndirən həmin iki ədəbi məktəb eyni məfkurə müstəvisində təqdim və təqdir olunur.

C.Məmmədquluzadənin yaradıcılığı ilə bağlı İsa Həbibbəylinin məqalələrini, monoqrafiyalarını oxuyanda nədənsə həmişə yadıma ədibin M.F.Axundzadə yaradıcılığının tədqiqi haqqında söylədiyi fikirlər gəlir. C.Məmmədquluzadə deyirdi ki, M.F.Axundzadənin bədii yaradıcılığından ya yaxşı yazmaq lazımdır, ya da heç nə yazmamaq lazımdır. Həmin məntiqdən yanaşanda bu gün deyə bilərik ki, İsa Həbibbəyli ədibin bu tövsiyyələrinə tam əməl edib, C.Məmmədquluzadə yaradıcılığından nə yazıbsa, həmişə yaxşı və mükəmməl yazıb. Yazıçının yaradıcılığı İsa Həbibbəylinin elmi irsində xüsusi yer tutur, böyük bir mərhələ təşkil edir. O müxtəlif illərdə yazdığı "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası (Azərbaycan, rus, ingilis və fars dillərində) (1992), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (1947), "Cəlil Məmmədquluzadə taleyi və sənəti" (2010) əsərləri ilə cəlilməmmədquluzadəşünaslıqda yeni səhifə açıb, yazıcının elmi tərcümeyi-halının, nəsr, dramaturgiya və fəlsəfi irsinin yüksək elmi meyarlarla ədəbiyyatşünaslığımıza gətirilməsində müstəsna xidmətlər göstərib.

"Cəlil Məmmədquluzadə" (1987) monoqrafiyasında İsa Həbibbəyli ədibin belə bir hikmətli kəlamını epiqraf kimi verib: "Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir". Düz 45 ilə yaxındır ki, Akademik İsa Həbibbəyli qələminin müqəddəs vəzifəsini ədəbi-mənəvi dəyərlərimizin tədqiqinə, təbliğinə yönəldib. Həm elmi, həm də ictimai-siyasi fəaliyyətində xalqa, dövlətçiliyə xidmətin ən yaxşı nümunəsini göstərib. Monoqrafiyanı yüksək qiymətləndirən Yusif Seyidov belə bir maraqlı nəticəyə gəlir: "İsa Həbibbəyli 1987-ci ildə "Cəlil Məmmədquluzadə" adlı bir kitab çap etdirmişdir. Bu, xüsusi quruluşa malik spesifik xüsusiyyətli bir nəşrdir. Necə kitabdır? - sualına bir sözlə, bir cümlə ilə cavab vermək mümkün deyil. Bu suala cavab üçün kitabın bütün məzmununu izləmək lazım gəlir. Bu kitabı "Molla Nəsrəddin" ədəbi məktəbinin şəkilli ensiklopediyası adlandırmaq olar" .

İsa Həbibbəylinin elmi üslubu xüsusi tədqiqat tələb edir. Belə ki, onun ayrı-ayrı məqalələrini, elmi monoqrafiyalarını oxuyanda tədqiqatçı yorulmur, fikir yayınmır. Çünki İsa müəllimin sabit, monolit məntiqi, geniş elmi fikirləri yığcam, lakonik ifadə etmək bacarığı istər-istəməz diqqəti eyni hədəfə yönəldir. Bəzi tədqiqatçılar kimi fikri, mətləbi dolaşıq, mürəkkəb cümlələrlə ifadə etməyə çalışmır. Sadə, lakin qısa, konkret cümlə və fikirlərlə dərin, sanballı elmi fikirləri ədəbiyyat tarixi faktına çevirir. O tədqiqatçıların çoxuna bəlli olan elmi həqiqətlərə,



ədəbi-tarixi materiallara çağdaş ədəbi-nəzəri fikir kontekstindən yanaşır.

Tədqiqat prosesində əsərlərin təkcə məzmun və sənətkarlıq xüsusiyyətlərini sadalamaqdan, məzmunculuğun aludəçisi olmaqdan tam azad olan İsa Həbibbəylinin uzun illərdən bəri formalaşan tədqiqat ideyaları, klassik və müasir ədəbi irsə dəyər vermə konsepsiyası var. C.Məmmədquluzadənin, M.H.Şəhriyarın bədii irsindən də, M.C.Cəfərovun, K.Məmmədovun, A.Zamanovun ədəbiyyatşünaslıq fəaliyyətindən də bəhs edəndə o, ancaq yazıçının, ədəbiyyatşünasın təsiri altına düşmür, ədəbi prosesin arxasınca getmir, öz tədqiqat metodologiyası ilə ədəbi irsə dəyər verir, özünəməxsus tədqiqat konsepsiyası, təhlil mədəniyyəti ilə ədəbi prosesi qabaqlayır, onu istiqamətləndirməyi bacarır.

İsa Həbibbəylinin "Xalq şairi Məmməd Araz" albom-monoqrafiyasını oxuyanda bunu bir daha yəqin edirik. Əsərdə M.Araz yaradıcılığına ancaq bir şairin ədəbi-taleyi, bədii istiqaməti fonunda yanaşılmır, bədii yaddaşın tarixi xalqın tarixi-etnoqrafik yaddaşı ilə vəhdətdə götürülür, bədii dəyərin ictimai dəyərə çevrilməsinin ictimai-bədii texnologiyaları tədqiqat predmeti kimi elmi təhlilə gətirilir. M.Araz yaradıcılığında bədii estetik xüsusiyyətlərə daha çox diqqət yetirən tədqiqatçı bu zəngin ədəbi irsin ədəbi ənənələrlə bağlılığı üzərində dayanır, müxtəlif bədii estetik sistemləri təmsil edən M.Füzuli və M.Ə.Sabir bədii irsinin M.Araz yaradıcılığına təsirini konkret ədəbi faktlar əsasında müəyyənləşdirməyə nail olur. Ancaq bu da alimin son nəticəsi, məqsədi deyil. Monoqrafiyanın yazılmasında əsas məqsəd bir şair kimi M.Araz yaradıcılığının ideya, sənətkarlıq və məfkurə cəhətlərini müəyyənləşdirmək, şairin poetik yaradıcılıq sistemini tədqiqata gətirmək, çağdaş poeziyanın yaradıcılıq istiqamətini təyin etməkdir. Poetik ənənənin yeni nəsillərə ötürülməsi, yeni ədəbi-tarixi şəraitdə onun hansı estetik əsaslarla meydana çıxması "Xalq şairi Məmməd Araz" albom-monoqrafiyasının əsasında dayanır.

"Xalq şairi Məmməd Araz" portret-monoqrafiyasında ənənəvi təhlil vərdişlərindən fərqli mövqe görürük. Əsərdə şairin poetik yaradıcılığının üslubi keyfiyyətləri müəyyənləşir, onun bədii yaradıcılığı "lirik-romantik", "lirik-psixoloji" üslub kimi səciyyələndirilir. İsa Həbibbəylinin hər bir əsəri üçün meyar olan sənətkarın bədii yaradıcılığını onun mənsub olduğu xalqın ictimai-sosial həyatı ilə bağlı tədqiq etmək faktını bu monoqrafiyasında da aydın görürük: "İndiki səviyyədə onun şeirləri və poemaları, bədii publisistikası yalnız öz yaradıcılığının deyil, mənsub olduğu xalqın da tərcümeyi-halının əsas hissəsidir, orijinal əks-sədasıdır. İkinci dünya müharibəsindən sonrakı yarım əsrdən artıq bir tarixi dövrün bədii, mənəvi tərcümeyi-halı Məmməd Araz sənətində özünün aydın və dolğun bədii əksini tapmışdır. Bu müdrik, ağır siqlətli, uzaqgörən, kövrək və ağıllı, düşünən və düşündürən poeziya mənalı bir ədəbi-tarixi səlnamədir" (3,15).

Monoqrafiyada M.Araz yaradıcılığı "mənəviyyat ədəbiyyatı", "düşüncə lirikası" kimi qiymətləndirilir. Bu lirikanın nəinki ədəbi ənənəvi başlanğıcı, həm də çağdaş poeziyadakı davamçıları müəyyənləşdirilir, Əli Kərim, Nəriman Həsənzadə, Cabir Novruz, Fikrət Qoca, Musa Yaqub, İsa İsmayılzadə, Məmməd İsmayıl, Zəlimxan Yaqub və s. şairlərimizin şeirlərində fikir poeziyasının davam etdirilməsi müsbət əbədi hadisə kimi qarşılanır.

İsa Həbibbəyli bütün hallarda M.Araza yaşadığı dövrün, ictimai mühitin övladı kimi yanaşır. Şairin poetik irsinə bu nöqteyi-nəzərdən qiymət verir. Ancaq o da önəmlidir ki, bütün təhlillərdə qiymət və meyar müasir ədəbiyyatşünaslıq standartlarına, elmi-nəzəri fikrin son nailiyyətlərinə uyğundur. M.Arazın mövzuları, əsərlərinin ideya və məzmun xüsusiyyətləri monoqrafiyada yüksək elmi səviyyədə təhlil olunur. Ədəbi ənənəni İsa Həbibbəyli təkcə formal əlamətlərlə, zahiri görüntü, ədəbi-məktəb və cərəyanlarla əlaqələndirmir, ədəbi hadisəyə daha miqyaslı kontekstdən yanaşır.

Tanış olduğumuz bəzi tədqiqat əsərlərində M.Araz yaradıcılığı ilə ədəbi ənənələr arasındakı əlaqələrdən söhbət gedəndə daha çox aşıq şeiri ədəbiyyatımız, M.Füzuli, Ə.-Cavad, S.Vurğun, H.Arif yaradıcılığı - bir sözlə əsasən heca vəznində yazılan əsərlər yada düşür. Bu mənada da "Xalq şairi Məmməd Araz" monoqrafiyası fərqlənir. Tədqiqatçı şairin yaradıcılığına professional tənqid və ədəbiyyatşünaslıq mövqeyindən yanaşır, ədəbi ənənə və ədəbi təsir probleminin sərhədlərini geniş-ləndirir. Milli poetik yaddaşa ancaq müxtəlif yaradıcılıq üsulları, vəzn, qafiyə məsələsi kimi yanaşılmır. Ədəbi ənənə bütöv bədii estetik sistem kimi qavranılır. Bu istiqamətdən diqqət yetirəndə, İ.Həbibbəyli M.Araz yaradıcılığı ilə satirik poetik ənənə - M.Ə.Sabir yaradıcılığı arasında kifayət qədər oxşarlıq, yaxınlıq tapır. Tədqiqatçı M.Məmmədov yazır: "Mirzə Ələkbər Sabirin zəngin və ötkəm şeirləri, ən böyük insan haqları şeirnaməsi olan həmişəyaşar satirası Məmməd Araz üçün sözün geniş mənasında əvəzsiz vətəndaşlıq məktəbidir... Beləliklə, ustad Məhəmməd Füzulinin müdriklik və məsuliyyəti, Sabir sənətinin vətəndaşlıq cəsarəti, Səməd Vurğun şeirinin yüksək ilhamı və milliliyi özünəməxsus şəkildə Məmməd Araz poeziyasında cəmləşmiş, yeni keyfiyyətlərlə zənginləşmişdir".

İsa Həbibbəyli monoqrafiyada M.Araz yaradıcılığını "vətən daşına" çevirən amillərə daha çox əhəmiyyət verir, milli folklor yaddaşının, ictimai məzmunun, vətəndaşlıq qeyrətinin bu prosesdəki rolunu ədəbi-tarixi və nəzəri səpgidə ortaya qoyur.

Xeyli sayda portret-məqalələr müəllifi olan İsa Həbibbəyli bu əsərlərində yaxından tanıdığı alimlərin, yazıçıların, ictimai xadimlərin həyat və yaradıcılığı haqqında geniş məzmunlu fakt və hadisələrlə çıxış edib. Bu böyük şəxsiyyətlərin demək olar ki, əksəriyyəti əsərlərindən faydalandığı və yaxud nə vaxtsa müəyyən münasibətdə olduğu, yaxından tanıdığı, elmi uğurlarında mühüm rol oynayan insanlardır. N.Tusi, N.Nərimanov, E.Sultanov, Ə.Ağayev, Ə.Hüseynzadə, akademik Y.Məmmədəliyev, M.Şahtaxtlı, A.-Zamanov, C.Cavadlı, İ.Səfərli, Elçin, V.Yusifli - hələ tam olmayan bu sırada çox imzalar, ünvanlar var. Həmin yazılarda uzun illərin həyat müşahidəsi, şəxsiyyətlərarası münasibət, qədirşünaslıq düyğuları hiss olunur. Hər bir ictimai xadimin, elm və sənət adamının yaradıcılığını, gündəlik fəaliyyətini onun şəxsiyyəti ilə vəhdətdə götürən İsa Həbib-bəyli bu məqalələri ilə ancaq müəyyən şəxsiyyətlərin həyat səlnaməsinə aydınlıq gətirməklə işini bitmiş hesab etmir, eyni zamanda ictimai və ədəbi fikrin ayrı-ayrı mərhələlərinin tipoloji özünəməxsusluğuna nəzər yetirir, tarixi və ədəbi dövrlərin, ictimai mühitin milli və ümumbəşəri dəyərlərinə qiymət verir.

F.Köçərli, S.Mümtaz kimi akademik İsa Həbibbəyli də daim ədəbi-tarixi fakt, yeni arxiv materialları axtarışındadır. Bir faktı qeyd edək ki, "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyərkən C.Məmmədquluzadənin və müasirlərinin həyat və yaradıcılığı ətrafında yeni ədəbi materiallar əldə etmək üçün Moskvada, Tiflisdə, Odessada, Yasnaya Polyanada, Qoridə uzun illər axtarışlar aparıb. Bu gərgin elmi axtarışların, yuxusuz gecələrin nəticəsi olaraq C.Məmmədquluzadənin üç yeni əsərini - "Ər", "Lənət", "Oyunbazlar" adlı pyeslərini əldə edib və 1980-ci ildə həmin əsərlərin çapına nail olub.

Publisistika ilə elmi üslubun vəhdəti İsa Həbibbəylinin elmi irsinə bir tərəfdən, kütləvilik gətirir, digər tərəfdən ictimai məzmununu genişləndirir. Qeyd edək ki, o mətbuat tarixi və onun bugünkü reallıqları ilə sıx bağlıdır. İsa Həbibbəyli "Molla Nəsrəddin" ədəbi məktəbinə də, "Füyuzat"a, "Şərqi-Rus"a da, "İrşada"da eyni dərəcədə rəğbət bəsləyir. Bu cür zəngin mətbuat ənənəmizdən öyrənə-öyrənə özü də peşəkar publisist və nasir kimi tanınıb. Bu da diqqətəlayiqdir ki, onun 1969-cu ildə "Kommunist" qəzetində dərc olunan "Arpaçay daşa bilməz" mənsur şeiri SSRİ Jurnalistlər İttifaqının keçirdiyi yaradıcılıq müsabiqəsində xüsusi mükafata layiq görülüb.

(ardı 12-ci səhifədə)